# Mahnıları ilə insanların qəlbinə yol tapan bəstəkar

*Canəli Əkbərov:*

**Bəhram Nəsibov musiqi aləmində öz sözünü deyən sənətkarlardandır**

*Adil Nəsibli:*

**Bəstəkarın 100-ə yaxın mahnısı var ki, hələ oxunmayıb, bəzi mahnıları isə kifayət qədər yayılmayıb**



**Deyirlər musiqi ruhun qidasıdır. Doğrudan da bəzən mənəvi rahatlıq tapmaq üçün özümüzə qapılıb, zövqümüzə uyğun mahnıların sədasında xəyallara dalırıq. Və ya həyatımızın ən sevincli anlarında musiqi sədaları altında rəqs edir, duyğularımızı bu cür ifadə etməyə çalışırıq. Musiqi həyatın sehridir. Körpəni mışıl-mışıl yuxularla görüşdürən ana laylasıdır, bizi Vətən uğrunda canımızdan, qanımızdan keçməyə səsləyən əsgər marşıdır, hər birimizi eşidəndə ayağa qaldıran, dövlət və millətimizlə fəxr etməyə ruhlandıran himndir.**

Musiqi həm də incəsənətin mühüm tərkib hissəsidir. Azərbaycan musiqisi isə hər zaman onu yaşadan dahi bəstəkarların sayəsində dünyaya səs salıb, sevilib, seçilib. Dillər əzbəri olan "Qarabağ", "Qadan mən alım", "Gözlərin", "Var gülüşündə", "Səni qəmli görəndə", "Eşqimin baharı", "Saf eşqim", "Ay dəli ceyran", "Xatırla məni", "Deyin hardadır", "Gecələr" və s. mahnıların müəllifi mərhum Bəhram Paşa oğlu Nəsibov da insanların qəlbinə yol tapan bəstəkarlarımızdan biridir.

1942-ci ildə anadan olan Bəhram Nəsibov 1962-ci ildə Azərbaycan Dövlət İncəsənət İnstitutuna (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) daxil olub. Həmin illərdə musiqisiz səhnələrə şeir və musiqi parçaları yazıb. Bunlardan ən uğurlusu M.F.Axundovun "Hekayəti Mirzə İbrahimxəlil kimyagər" əsərinə yazdığı şeir və musiqi parçaları olub. Onun bu işindən qrup rəhbəri Soltan Dadaşov, müəllimi, böyük bəstəkarımız Şəfiqə Axundova, eləcə də qrup yoldaşları razı qalmışdılar. B.Nəsibov oxuduğu ali məktəbdə ədalətsizliyin qurbanı olaraq dövlət imtahanından haqsız yerə qovulub. Ədalət 20 il sonra bərpa olunub. O, 1982-87-ci illərdə həmin ali məktəbin Mədəni-maarif fakültəsində qiyabi təhsil alıb. Onun yazdığı şeirə hələ 1967-ci ildə böyük şairimiz Rəsul Rza "Mənim fikrimcə" kitabında öz münasibətini bildirib.

Ötən əsrin 60-70-ci illərində mahnı yaradıcılığında tənəzzül yaranan vaxt bəstəkar Bəhram Nəsibov bu boşluğu doldurur. O, 200-dən çox mahnı bəstələyir. Mahnılarının xalq tərəfindən sevildiyinə görə Bəhram Nəsibov bəstəkar Ələkbər Tağıyevi üstələyir. Bu fikirlər dahi bəstəkarlar Qara Qarayevə, Fikrət Əmirova və xalq şairi Bəxtiyar Vahabzadəyə məxsusdur.

B.Nəsibov 60-cı illərdə İslam Rzayev və Elmira Rəhimovanın Hindistanda təşkil edilən Azərbaycan günlərində duet oxumaları üçün "Sən də həmdəm, mən də həmdəm" və "Salam Hindistan" mahnılarını yazır. Onun mahnıları soydaşlarımızın yaşadığı bütün ölkələrdə məşhurdur. B.Nəsibovun mahnılarını Azərbaycanın görkəmli bəstəkarlarından Şəfiqə Axundova, Cahangir Cahangirov, Oqtay Kazımi, xalq artisti Ramiz Mustafayev və başqaları çox bəyəniblər. Onlar bəstəkarın yaradıcılığı haqqında gözəl fikirlər söyləyiblər.

B.Nəsibovun 100-dən artıq mahnısı sovet dövründə müəllif elan edilmədən xalq mahnısı, təsnif adı ilə efirdə yayımlanıb. Səbəb onun bəstəkarlıq fakültəsini bitirməməsi olub. Bu həmin illərdə açıq rəqabətdə ona məğlub olan bəzi "diplomlu bəstəkarların" uydurduğu süni sədd idi. Amma tarix göstərdi ki, istedadların yolunu açıb ruhlandırmaq əvəzinə onları həvəsdən salmaq istəyən bəzi "diplomlu bəstəkarların" mahnıları həvəskar dedikləri insanların mahnıları ilə rəqabətdə məğlub oldu. Xalq şairləri Bəxtiyar Vahabzadə, Məmməd Araz yazıçı Əleviyyə Babayeva, xalq artisti Sara Qədimova, ictimai xadim Çingiz Fərəcov və başqaları Bəhram Nəsibovun müdafiəsinə qalxdıqdan sonra onun bəstələdiyi mahnıların təqdimatında "musiqisi Bəhram Nəsibovundur" sözləri tez-tez eşidilməyə başlandı. Böyük bəstəkarımız Fikrət Əmirovun göstərişi əsasında bir neçə dəfə onun adı mahnı müəllifi kimi efirdə səsləndi. Təəssüf ki, bədxahları onu nəinki həvəskar bəstəkar, heç ifaçı, novellalar müəllifi kimi də efirə yaxın buraxmırdılar.

Azərbaycan müstəqillik qazandıqdan sonra bir çox məsələlər kimi, bu məsələ də öz həllini tapmışdı. Artıq onun müəllif kimi adı çəkilirdi. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın sayəsində muğam sənətinə verilən böyük qiymət nəticəsində keçirilən müsabiqələrdə Bəhram Nəsibovun da bəstələdiyi mahnılar səslənirdi.

O, fitri istedadı sayəsində heç bir musiqi təhsili olmadan istənilən musiqi alətində ifa etməyi bacarırdı. B.Nəsibov Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında böyük sənətkarımız, xalq artisti Xan Şuşinskinin studiyasında onu tarda müşayiət edib. Xan əmi studiyada təşkilatçılığı ona həvalə etmişdi. Qeyd edək ki, bir çox görkəmli xanəndələrimiz ilk addımlarını həmin studiyada atıblar.

Bəhram Nəsibov, həmçinin gözəl şeirlər yazırdı. Bir çox mahnılarının sözləri özünə aid idi. O, Əliağa Vahid, Molla Cümə, Aşıq Ələsgər, Aşıq Şəmşir, Bəxtiyar Vahabzadə, Hüseyn Arif, Aslan Aslanov, Hafiz Baxış, Zəlimxan Yaqub və başqalarının sözlərinə mahnılar bəstələmişdi. Həmin mahnılar bu gün də dillər əzbəridir. Məsələn, Aslan Aslanovun sözlərinə yazdığı "Mənim anam" mahnısı ümummilli lider Heydər Əliyevin çox xoşuna gəlmişdi.

B.Nəsibov 1993-cü ildə Ulu Öndər xalqın tələbi ilə hakimiyyətə qayıtdıqda bu qurtuluşu ilk təbrik edənlərdən, alqışlayanlardan olub. O, qurtuluşumuzun təməli olan bu qayıdışı Şəhriyarsayağı yazdığı şeirlə alqışlamışdı. Şeirdən bir parça:

*Heydərbaba, gəlişinə min alqış!*
*Matəm oldu Sənsiz keçən bahar, qış.*
*El sinəsi dərdə, qəmə oldu tuş,*
*Məlhəm eylə yaralara, amandır!*
*Xalqın günü bir-birindən yamandır!*

B.Nəsibov ulu öndər Heydər Əliyevin andiçmə mərasimində dünya şöhrətli müğənnimiz Zeynəb Xanlarovanın ifa etməsini nəzərdə tutub, onun səsinə uyğun olaraq "Min yaşa Heydər baba" mahnısının həm sözünü, həm də musiqisini yazmışdı. Ancaq mahnı uzun illər sonra "AzTV"nin solisti Səttar Nəsirovun ifasında səslənib və Qızıl Fonda yazılıb. Mahnının ilk ifaçısı Səttar Nəsirov xatirəsində deyirdi: "Ulu Öndərimiz o mahnını o qədər istəyirdi, mahnı o qədər xoşuna gəlmişdi ki, Əlibaba Məmmədov mənə dedi: Sən mahnını oxuyanda ulu öndərimiz Heydər Əliyev o qədər mahnıya aludə olub, o qədər diqqətlə baxıb ifanı dinləyirdi ki..."

Xalq artisti, "Şöhrət" ordenli Canəli Əkbərov isə mərhum bəstəkarı belə xatırlayır: "Bəhram Nəsibov halal insan idi. Kimin nə deməyindən asılı olmayaraq onun sənəti hər kəsə məlumdur. Bəhram Nəsibov mənim gözümün qabağında sənətə gəlib və qısa zamanda məhsuldar sənətçiyə çevrilib. Bəhram istedadlı sənətkar, etibarlı dost, nəcib insan idi. Onu hər zaman nikbin əhval-ruhiyyədə görmək mümkün idi. Mən Bəhram Nəsibovla konsertlərdə, el şənliklərində və s. tədbirlərdə olmuşam. Bəhram musiqi aləmində öz sözünü deyən sənətkarlardandır. O, dillər əzbəri olan bir çox mahnıların müəllifidir. Mən onun "Qarabağ" və s. mahnılarını ifa etmişəm və sənətinə çox böyük hörmətim var."

1998-ci ildə uzun sürən xəstəlikdən sonra vəfat edən B.Nəsibovun yaradıcılıq irsi çox genişdir. Lakin bəstəkarın 100-ə yaxın mahnısı var ki, hələ oxunmayıb, bəzi mahnıları isə kifayət qədər yayılmayıb. Mərhum bəstəkarın oğlu Adil Nəsibli qeyd etdi ki, ömrünün qalan bir neçə ilində xəstəliyə düçar olduğu üçün Bəhram Nəsibovun həmin mahnıları ifa edilməyib. O bildirdi ki, 2017-ci ildə Bəhram Nəsibovun 75 illik yubileyi olacaq: "İstərdim ki, onun irsinin tamamlanması işində dövlətin dəstəyi olsun. Arzu edərdim ki, bu ildən başlayaraq bu mahnılar ifa edilsin və toplu olaraq disk şəklində buraxılsın."

A.Nəsibli bildirdi ki, bəstəkarın 2000-ci ildə çap edilmiş kitabına daxil edilməmiş xeyli mahnı və şeirlərin kitab halında nəşr olunmasının da arzusundadır: "Arzu edərdim ki, Bəhram Nəsibov haqqında sənədli film çəkilsin. Bunun üçün artıq Mədəniyyət və Turizm Nazirliyinə də rəsmi şəkildə müraciət etmişəm. Bu işlərin yekunu olaraq isə 2017-ci ildə Bəhram Nəsibovun 75 illik yubileyinin qeyd edilməsini istəyirəm."

**Nail Rəhimzadə,**
***"İki sahil"***